**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ, BAKI, AZƏRBAYCAN RESPUBLİKASI**

və

**TBİLİSİ HUMANİTAR PEDAQOJİ UNİVERSİTETİ,**
**TBİLİSİ, GÜRCÜSTAN RESPUBLİKASI**
**arasında**

# ANLAŞMA MEMORANDUMU

Azərbaycan Tibb Universiteti, Bakı, Azərbaycan və Tbilisi Humanitar Pedaqoji Universiteti, Tbilisi, Gürcüstan Respublikası qarşılıqlı əməkdaşlığı inkişaf etdirmək və qarşılıqlı anlaşmanı genişləndirmək məqsədilə aşağıdakı maddələr üzrə qarşılıqlı Anlaşma Memorandumunu imzalamağa razılaşdılar:

**I** - Azərbaycan Tibb Universiteti və Tbilisi Humanitar Pedaqoji Universiteti hər bir ölkənin qaydaları və qurumları daxilində aşağıdakı maddələr üzrə əməkdaşlıq etmək barədə razılığa gəldilər:

1) Professor-müəllim heyətinin və elmi işçilərin mübadiləsi də daxil olmaqla birgə elmi-tədqiqat işlərinin təşviqi.

2) Hər iki ölkənin qanuni orqanlarının razılığı ilə hər iki ölkənin qanunvericiliyinə uyğun olaraq, qısa- və uzunmüddətli klinik təlim kursları da daxil olmaqla, baza ali tibb təhsili, magistratura və rezidentura səviyyələri üzrə mübadilə proqramlarının inkişaf etdirilməsi.

3) Elmi-tədqiqat məlumatlarının və texniki materialların mübadiləsi.

4) Elmi nəşrlərdə və mədəni fəaliyyətlərdə əməkdaşlıq.

5) Konfranslar, seminarlar, simpoziumlar və davamlı tibb və səhiyyə elmləri təhsili proqramları kimi birgə akademik və elmi fəaliyyətlərin təşkili.

**II** - Birgə elmi-tədqiqat işləri ilə bağlı mübadilə fəaliyyətləri hər bir universitetin vəsaitləri və şəraitini nəzərə alaraq ayrıca planlaşdırılmalıdır; mübadilə proqramının qaydaları və prosedurları tərəflər arasında ayrı bir protokolla müəyyənləşdirilir.

**III** - Yuxarıda göstərilən akademik mübadilələr hər bir ölkədə tətbiq olunan qanunvericilik və onların müvafiq büdcə vəsaitləri ilə məhdudlaşdırılır.

**IV** - Bu protokol tərəflərin heç biri üçün məcburi maliyyə öhdəliklərinə səbəb olmamalıdır.

**V** – Bu Anlaşma Memorandumunun imzalanması hər iki tərəf üçün iki universitet arasında əməkdaşlığa dair hər hansı bir xüsusi razılaşma bağlamaq öhdəliyinə səbəb olmamalıdır.

**VI** - Bu protokol çərçivəsində birgə layihələr zamanı tədqiqatların nəticələri əqli mülkiyyət hüquqları məsələlərinə təsir göstərərsə, tərəflər sözügedən layihə başlamazdan əvvəl yaranan əqli mülkiyyət hüquqlarına aid şərtləri tənzimləyən əlavə protokol tərtib etməlidirlər.

**VII** - Bu Anlaşma Memorandumunun icrası hər bir Tərəf ölkəsində tətbiq olunan qanunlara tabedir. Tərəflər qanuna uyğun olaraq zəruri daxili və ya digər icazələrin alınmasına görə məsuliyyət daşıyırlar.

**VIII** - Bu Anlaşma Memorandumu imza tarixindən sonra 5 (beş) il müddətində qüvvədədir. Bu Anlaşma Memorandumu hər iki universitetin səlahiyyətli nümayəndələrinin yazılı və ümumi razılığı və bu protokola əlavə protokollar formasında tamamlana və ya dəyişdirilə bilər. Əlavə və ya düzəlişlər yazılı və imzalandığı təqdirdə etibarlı olacaqlar. Tərəflərin yazılı və imzalanmış razılığı ilə Anlaşma Memorandumu sonrakı 5 (beş) il müddətinə uzadıla bilər.

**IX** - Hər bir universitet digər tərəfə əvvəlcədən 6 (altı) ay əvvəl yazılı xəbərdarlıq göndərməklə Anlaşma Memorandumunu ləğv etmək hüququnu özündə saxlayır. Bu halda, davam edən layihələr tamamlanana qədər davam etdirilir.

**X** - Bu memorandum Azərbaycan və ingilis dillərində bərabər hüquqi qüvvədə olan 4 (dörd) əsli nüsxədə bağlanmışdır. Tərcümədə ziddiyyət yaranan halda ingilis dili variantına üstünlük verilir.

Hər iki universitetin səlahiyyətli nümayəndələri tərəfindən imzalanandan sonra, bu Anlaşma Memorandumu qüvvəyə minir.

| Azərbaycan Tibb Universiteti<br>(Bakı, Azərbaycan Respublikası)<br>adından | Tbilisi Humanitar Pedaqoji Universiteti<br>(Tbilisi, Gürcüstan Respublikası)<br>adından |
|---|---|
| Prof. Gəray Gəraybəyli<br>Rektor | Prof. Valentina Sakvarelidze<br>Rektor |
| Tarix: 29 / 10 / 2019 | Tarix: 06 / 12 / 2019 |

**Ünvan**: Ənvər Qasımzadə küçəsi 14,
AZ1022 Bakı, Azərbaycan
**Tel**: (+994) 12 597 38 98
**Faks**: (+994) 12 597 38 98
**E-mail**: rector@amu.edu.az

**Ünvan**: Monk Gabriel Salos küçəsi 31,
0144 Tbilisi
**Tel**: (+995 32) 255 24 24
**Faks**: (+995 32) 254 59 09
**E-mail**: thu-posta@thu.edu.ge

TBILISI HUMANITARIAN TEACHING UNIVERSITY

**MEMORANDUM of UNDERSTANDING**

**between**

**AZERBAIJAN MEDICAL UNIVERSITY, BAKU, REPUBLIC OF AZERBAIJAN**

**and**

**TBILISI HUMANITARIAN TEACHING UNIVERSITY, TBILISI, THE REPUBLIC OF GEORGIA**

Azerbaijan Medical University, Baku, Azerbaijan and Tbilisi Humanitarian Teaching University, Tbilisi, The Republic of Georgia agreed to enter into a mutual Memorandum of Understanding (MoU) with the purpose to develop mutual cooperation and extend mutual understanding on the following articles.

**I** - Azerbaijan Medical University and Tbilisi Humanitarian Teaching University agree to cooperate on the following articles within each country's regulations and entities:

1) Promotion of joint scientific research works including exchange of academic personnel and scientific workers.

2) Development of undergraduate and postgraduate student exchange programs including short-term and long-term clinical training courses in accordance with the legislation of both countries and approval from the legal authorities of both countries.

3) Exchange of academic research data and technical materials.

4) Cooperation on scientific publications and cultural activities.

5) Organization of joint academic and scientific activities such as conferences, seminars, symposiums and ongoing medical and health sciences education programs.

**II** – The exchange activities related with the joint scientific research works shall be planned separately by taking into consideration each university's resources and conditions; the rules and procedures of the exchange program shall be determined in a separate protocol between the parties.

**III** – The academic exchanges described above shall be limited with the legislation applied in each country and their respective budgetary resources.

**IV** – This protocol shall not cause any compulsory financial responsibility for either party.

**V** – Signing of this MoU shall not cause any obligation for either party to enter into any specific agreement relating to cooperation between two universities.

**VI** – In case the research results impact the matters related to intellectual property rights within the scope of this protocol, the parties shall enter into an additional protocol managing the conditions regarding the intellectual property rights prior to the start of the project.

**VII** – The execution of this MoU shall be subject to the laws applied in each Party's country. The parties are responsible for obtaining the required in-house or other approvals in accordance with the legislation.

**VIII** – This MoU shall be in effect for 5 (five) years following the date of signature. This MoU may be complemented or amended by the written and common consent of authorized representatives of both universities and additional protocols to this protocol. The amendments and changes will not be valid unless it is written and signed. The MoU may be extended for another 5 (five) years by written and signed consent of the parties.

**IX** – Each university shall reserve the right to terminate the MoU by issuing a written notice to the other party 6 (six) months in advance. In that case, the on-going projects shall continue until they are completed.

**X** – This memorandum is concluded in 4 (four) original copies in Azerbaijan and English languages of equal legal validity. In case of conflict in translation the English version shall prevail.

This MoU shall become effective after being signed by the authorized representatives of both universities.

| | |
|---|---|
| **On behalf of**<br>**Azerbaijan Medical University,**<br>**Baku, The Republic of Azerbaijan** | **On behalf of**<br>**Tbilisi Humanitarian Teaching University,**<br>**Tbilisi, The Republic of Georgia** |
| **Prof. Garay Garaybayli**<br>**Rector** | **Prof. Valentina Sakvarelidze**<br>**Rector** |
| Date: 29 / 10 / 2019 | Date: 06 / 12 / 2019 |


**Address**: Anvar Gasimzade Street 14, AZ1022 Baku, Azerbaijan
**Tel**: (+994) 12 597 38 98
**Fax**: (+994) 12 597 38 98
**E-mail**: rector@amu.edu.az

**Address**: 0144, Tbilisi, Monk Gabriel Salos Ave. №31
**Tel**: (+995 32) 255 24 24
**Fax**: (+995 32) 254 59 09
**E-mail**: thu-posta@thu.edu.ge